# "Türklər/azərbaycanlılar yalnız İranı müdafiə etmək üçün yaradılmışlar"




Aşağıda aparıcının fars dilində səsləndirdiyi mətnin Azərbaycan türkcəsində tərcüməsi verilmişdir:

Doktor Pir Müəzzəm bu yaxınlarda verdiyi müsahibəsində Həsən Ruhaninin hökumət kabinetinə türk/azərbaycanlı nazir təyin etməməsini tənqid edərək demişdir: “Möhsün Rezai bildirib ki, bu azərbaycanlılar yalnız döyüşlərdə düşmənin müdafiə xəttini yarrmaq və şəhid olmaq üçün yaradılıblar. Möhsün Rezai İran-İraq müharibəsi zamanı İnqilab Keşikçiləri Qvardiyasının baş komandanı olub, İranın müdafiəsi üçün on minlərlə azərbaycanlını ölümə verib.”

Onun bu fikri İran hökumətinin türklərə ümumi baxışını əks etdirir. 2012-ci ildə İranın Xarici İşlər naziri Əli Əkbər Salehi Türkiyəyə səfəri zamanı jurnalistlərə deyib ki, “İran əhalisinin 40 faizini türklər təşkil edir”. Amma bu gün, müharibədən 33 il sonra, İranın əhalisinin 40%-ini təşkil edən türklər/azərbaycanlılar öz ana dillərində təhsil almaq, milli televiziyaya, türk/Azərbaycan dilində qəzetə sahib olmaq və s. bu kimi bir çox ilkin

hüquqlardan məhrum olmaqla yanaşı, eyni zamanda həmişə ən sərt siyasi və iqtisadi şiddətə məruz qalmışlar. Məsələn, Fars Dili və Ədəbiyyatı Akademiyasının 2021-ci ildəki büdcəsi 46 milyard 338 milyon rial (təqribən, 1,103,285 ABŞ dolları) olsa da, bu məbləğdə türk dilinin payı sıfırdır.

Ruhaninin hökumət kabineti üzvlərinin 55%-ini yalnız İsfahan, Tehran, Fars və Xorasan kimi dörd əyalətdən olan farslar təşkil edirdilər. Amma Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Qəzvin, Zəncan, Əlborz və Həmədan kimi türk/Azərbaycan əyalətlərindən Ruhani kabinetində cəmi bir nəfər var idi. Ölkənin idarəsinə nəzarət edən iki mühüm qurumun - Məsləhət və Nəzarət Şurasının üzvləri ancaq farslardırlar, bu qurumlarda da əslən türk/azərbaycanlı yoxdur.

Ölkənin əsas hakimiyyət qurumları üzvlərinin tərkibinə nəzər salsaq, o zaman məsələnin həqiqi üzünü belə görərik: fundamentalistlərin və islahatçıların türklərlə bağlı fikirləri eynidir və hər ikisi hesab edir ki, türklər yalnız İranın müharibələrində və müdafiəsində iştirak etməlidirlər, bundan başqa onların ölkənin idarəsində, inkişafı və zənginləşməsi işində iştirak etməyə heç bir haqları yoxdur.

***Səməd Bayramzadə,***
***dosent***